# Dövlət Bayrağı Günü təhsil müəssisələrində qeyd olunub

## Naxçıvan Dövlət Universitetində



Naxçıvan Dövlət Universitetində Dövlət Bayrağı Günü münasibətilə tədbir keçirilib.Universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov tədbiri giriş sözü ilə açaraq Azərbaycan Respublikasının Dövlət bayrağının müstəqillik rəmzi, milli qürur və şərəf mənbəyi olduğunu bildirib. Qeyd olunub ki, Azərbaycan Demokratik Respublikasının dövlət bayrağı 1990-cı il noyabrın 17-də, məhz ulu öndər Heydər Əliyevin rəhbərliyi altında Naxçıvan Ali Sovetinin sessiyasında yenidən dövlət bayrağı kimi təsdiq edilmiş, o vaxtkı Azərbaycan Ali Soveti qarşısında bu bayrağın Azərbaycanın Dövlət bayrağı kimi qəbul edilməsi ilə bağlı vəsatət qaldırılmışdır. Üçrəngli bayrağımız 1991-ci ildə müstəqil Azərbaycan Respublikasının rəsmi atributu elan edilmişdir.

Rektor kollektivi bayram münasibətilə təbrik edərək, bayrağımızın daim zirvələrdə, işğaldan azad olunmuş torpaqlarımızda dalğalanmasını arzu edib.

Azərbaycan tarixi kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru Xəzər Hüseynov “Müstəqilliyimiz və milli mənsubiyyətimizin müqəddəs rəmzi olan bayrağımız” mövzusunda məruzə ilə çıxış edib. O, məruzəsində ölkəmizin çoxəsrlik dövlətçilik tarixi, Azərbaycan Respublikasının Dövlət Bayrağının yaranması, onunla bağlı qəbul edilən sərəncamlar, Bakıda, Naxçıvan şəhərində və digər rayonlarda Dövlət Bayrağı Meydanı və muzeylərinin yaradılması barədə məlumat verib. Qeyd olunub ki, bu gün paytaxt Bakının görkəmli yerində dünyanın ən böyük bayrağı - dövlətimizin müstəqilliyinin, suverenliyinin rəmzi olan Azərbaycan Bayrağı dalğalanır.

Tədbir Tələbə Teatr Studiyasının Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi Gülxarə Əhmədovanın rəhbərliyi ilə hazırladığı ədəbi-bədii kompozisiya ilə yekunlaşıb.

**Mehriban SULTAN**

## Sumqayıt Dövlət Universitetində



9 noyabr - Dövlət Bayrağı, 12 noyabr - Konstitusiya və 17 noyabr - Milli Dirçəliş günləri Sumqayıt Dövlət Universitetində təntənə ilə qeyd edilib.

Azərbaycan Respublikasının Dövlət himninin səsləndirilməsi ilə başlanan tədbiri universitetin rektoru, professor Elxan Hüseynov giriş sözü ilə açaraq ümummilli lider Heydər Əliyevin milli dövlətçiliyimizin qorunmasındakı xidmətlərindən, üçrəngli bayrağımıza verdiyi dəyərdən danışıb. Bildirilib ki, ulu öndərin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyev “Azərbaycan Respublikasının Dövlət Bayrağı Gününün təsis edilməsi haqqında” sərəncam imzalayıb. Ölkə başçısının “Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində Dövlət bayrağı meydanının yaradılması haqqında” 2007-ci il 17 noyabr tarixli sərəncamına əsasən Bakının Bayıl qəsəbəsində dünyanın ən hündür bayraq dirəyi inşa edilib. Dalğalanan Bayrağımız bizim azadlıq məfkurəsinə, milli-mənəvi dəyərlərə və ümumbəşəri ideyalara sadiqliyimizi nümayiş etdirir.

Rektor daha sonra müstəqil Azərbaycan Respublikasının Konstitusiyasının yaranmasından və Milli Dirçəliş Gününün tarixi əhəmiyyətindən də geniş söz açıb. Çıxışının sonunda Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə işğal altında qalmış torpaqlarımızın tezliklə azad olunmasını və Azərbaycan Bayrağının Qarabağda, Xankəndidə, Şuşada dalğalanmasını arzulayıb.

Bayram tədbiri incəsənət ustalarının və universitetin özfəaliyyət kollektivinin hazırladığı konsert proqramı ilə davam edib.

**Mətbuat xidməti**

## Bakı Slavyan Universitetində



Noyabrın 8-də Bakı Slavyan Universitetində Dövlət Bayrağı Gününə həsr edilmiş “Mənim varlığımın cilası bayraq” adlı geniş tədbir keçirilmişdir. İki hissədən ibarət olan tədbirin sözlü-musiqili hissəsi universitetin geniş foyesində baş tutmuşdur. BSU-nun rektoru, professor Nurlana Əliyeva Dövlət Bayrağı Gününün hər bir Azərbaycan vətəndaşı üçün qürur və şərəf günü olduğunu bildirərək Məhəmməd Əmin Rəsulzadənin “bir dəfə yüksələn bayraq bir daha enməz” ifadəsini xatırladıb. BMT-də, beynəlxalq tədbirlərdə qürurla dalğalanan Azərbaycan bayrağının ölkəmizin siyasi qüdrətini, iqtisadi potensialını, hərbi gücünü nümayiş etdiyini vurğulayan N.Əliyeva qeyd edib ki, bu bayraq bəşəriyyətin multikulturalizm, tolerantlıq kimi yüksək dəyərlərini ehtiva edən beynəlxalq forumlarda, nüfuzlu dövlətlərarası tədbirlərdə qaldırılır. BSU rektoru Azərbaycanın Dövlət bayrağının daim ucalarda olması üçün gənclərimizi dövlət başçısı, möhtərəm Prezidentimiz İlham Əliyevin ətrafında daha sıx birləşməyə çağırıb. Rektor universitetin professor-müəllim heyətini, tələbə gəncləri Dövlət Bayrağı Günü münasibətilə təbrik edib və onlara uğurlar diləyib.

Sözlü-nəğməli hissəni BSU nəzdindəki Məktəb-Lisey Kompleksinin şagirdləri “Azərbaycanım” mahnısı ilə başlayıblar. Sonra tələbələr tədbir iştirakçılarını müxtəlif dillərdə salamlayaraq Azərbaycan bayrağının möhtəşəmliyindən və əzəmətindən danışıblar.

Tədbir rəsmi hissə ilə davam edib. BSU-nun elmi işlər üzrə prorektoru, professor Rafiq Novruzov, tərbiyə işləri üzrə prorektor, filologiya üzrə fəlsəfə doktoru Xanım Sultanova Dövlət bayrağının rəmzi mənalarına toxunub, onun milli-mənəvi dəyərlərimizdəki yerindən söz açıblar.

Daha sonra Təhsil Nazirliyi tərəfindən təşkil edilmiş “Bayraq yürüşü”ndə iştirak edən BSU-nun professor-müəllim heyəti və tələbələrinin fotolarını əks etdirən slayd nümayiş olunub.

BSU-nun professoru Habil Məmmədov Azərbaycan ərazisində qədim dövrlərdən mövcud olan dövlət və xanlıqların bayraqları haqqında məlumat verib, bayraqların görüntülərindən ibarət slayd nümunəsini mərasim iştirakçılarına təqdim edib.

Sonda BSU tələbələrinin fikirləri dinlənilib.

**Mətbuat xidməti**

## “Naxçıvan” Universitetində



“Naxçıvan” Universitetinin xarici dillər fakültəsinin təşkilatçılığı ilə ali təhsil ocağının akt zalında Dövlət Bayrağı Günü münasibətilə tədbir keçirilib. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildikdən sonra üçrəngli bayrağımız səhnəyə gətirilib.

Tədbirin aparıcıları bildiriblər ki, Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra Dövlət bayrağı milli suverenliyin simvolu kimi ölkəmizin bütün vətəndaşları üçün müqəddəs dövlətçilik rəmzlərindən birinə çevrilib. Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan bu bayraq bizim azadlıq məfkurəsinə, milli-mənəvi dəyərlərə və ümumbəşəri ideallara sadiqliyimizi nümayiş etdirir.

1991-ci il oktyabrın 18-də “Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında” Konstitusiya Aktı ilə Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi onun dövlət rəmzlərini, o cümlədən Dövlət bayrağını bərpa edib. Aparıcılar onu da vurğulayıb ki, bayrağımıza göstərilən daha bir qayğının ifadəsi olaraq 2010-cu il sentyabrın 1-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən Dövlət Bayrağı Meydanının - Bakı şəhərinin Bayıl sahəsində yerləşən memorial abidə-istirahət parkının təntənəli açılışı olmuşdur.162 metr yüksəklikdə dalğalanan Azərbaycan bayrağı dünyanın ən yüksək bayrağıdır. Bayrağın eni 35 m, uzunluğu 70 m, ümumi sahəsi 2450 $m^2$, kütləsi isə təqribən 350 kq-dır. Ginnes Dünya Rekordları Təşkilatı 2010-cu il mayın 29-da Azərbaycan Dövlət Bayrağı Dirəyinin dünyada ən hündür bayraq dirəyi olduğunu təsdiq edib. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da dövlət atributlarına hörmət və ehtiram yüksək səviyyədədir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyinin yaradılması haqqında” 2014-cü il 22 avqust tarixli Sərəncamına əsasən Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyi yaradılıb.

Tədbirin bədii hissəsində universitet tələbələrinin ifasında səslənən bir-birindən maraqlı musiqi nömrələri tədbir iştirakçılarının marağına səbəb olub. Tədbirə ali təhsil ocağının rektoru İsmayıl Əliyev yekun vurub.

**Nuray ƏSGƏROVA**

## Azərbaycan Texniki Universitetində



Azərbaycan Texniki Universitetinin (AzTU) Tələbə Həmkarlar İttifaqı Komitəsinin təşkilatçılığı ilə “9 noyabr - Dövlət Bayrağı Günü”nə həsr olunan tədbir keçirilib. Tədbir Azərbaycan Respublikasının Dövlət himninin səslənməsi ilə başlayıb.

AzTU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Elvin Bəxtiyarlı və Həmkarlar İttifaqı Komitəsinin sədri Akif Cahangirov çıxış edərək üçrəngli bayrağımızın tarixindən, keşməkeşli istiqlaliyyət yolundan danışıblar. Bildirilib ki, Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan Dövlət bayrağı 1918-ci il noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin iclasında qəbul edilib. 70 il qəlblərdə yaşadılan bayrağımız müstəqillik illərində ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 1990-cı ildə Naxçıvan Ali Sovetinin binası önündə yenidən dalğalanmağa başlayıb. 2009-cu ildə isə Azərbaycan Prezidenti İlham Əliyev Dövlət Bayrağı Gününün təsis edilməsi haqqında sərəncam imzalayıb və noyabrın 9-u Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü elan olunub.

Aparıcı tələbələr dövlətimizin rəmzlərindən biri sayılan bayrağımızın sonsuz iftixar mənbəyi olduğunu, hər bir azərbaycanlının ondan qürur duyduğunu deyiblər. Bildiriblər ki, bugünkü gənclik milli-mənəvi dəyərlərimizə ehtiramla yanaşır, doğma Vətənimizə sədaqətlə xidmət edir, xalqımızın xoşbəxt gələcəyi və rifahı naminə səylərini əsirgəmir.

Tədbirdə tələbələr Vətənə, bayrağa, torpağa və şəhidlərimizə həsr olunan şeirlər səsləndirib, mahnılar ifa ediblər.

**Mətbuat xidməti**

## Azərbaycan Dövlət Aqrar Universitetində



Azərbaycan Dövlət Aqrar Universitetinin bütün korpuslarında və tələbə evində Dövlət Bayrağı Gününün təntənəsi yaşanıb.

Aqronomluq fakültəsində 9 noyabr - Dövlət Bayrağı Gününə və 12 noyabr - Konstitusiya Gününə həsr olunmuş tədbirlər bir sıra əlamətləri ilə yadda qalıb. Tədbir Azərbaycan Respublikasının Dövlət himni ilə başlayıb, fakültənin dekanı, dosent Məhərrəm İsmayılov hər iki mühüm tarixi bayram haqqında qısa məlumat verib.

ADAU-nun rektoru, AMEA-nın müxbir üzvü, professor İbrahim Cəfərov bayrağımızın müqəddəsliyindən, Konstitusiyamızın humanistliyindən danışıb, professor-müəllim və tələbə kollektivini təbrik edib.

Fakültənin birinci kurs tələbəsi Şamil Səfərov bayrağı sevməyin əmanətlərə sahib çıxmağı bacarmaq olduğunu bildirib.

Sonra fakültənin tələbələri “Çırpınırdı Qara dəniz” adlı musiqili kompozisiya təqdim ediblər.

Sonda fakültənin ixtisaslar üzrə təşkil edilən komandaları arasında bilik yarışması keçirilib. Altı komanda arasında keçirilən yarışda meşəçilik ixtisasının “Meşəçilər “ komandası 1-ci yeri, torpaqşünaslıq və aqrokimya ixtisasının “Kaspian” komandası 2-ci yeri, aqronomluq ixtisasının “Aqronomluq” komandası 3-cü yeri tutublar. Qaliblər fəxri fərmanlarla təltif ediliblər.

Baytarlıq təbabəti və zoomühəndislik fakültəsinin Tələbə Həmkarlar İttifaqı və Tələbə Gənclər Təşkilatının ictimai dəstəyi ilə 9 noyabr - Dövlət Bayrağı Gününə həsr olunmuş tədbir keçirilib. Tədbiri giriş sözü ilə ADAU-nun rektoru, professor İbrahim Cəfərov açıb, bayrağımızın qürurumuz olduğunu, onun müqəddəsliyini ətraflı təhlil edib.

Sonda isə Üzeyir Hacıbəylinin “Koroğlu” operasının musiqisi fonunda “Bir kərə yüksələn bayraq bir daha enməz” adlı qısametrajlı film izlənilib.

İctimai elmlər və multikulturalizm kafedrasının əməkdaşları isə ADAU-nun tələbə yataqxanasının zalında Dövlət Bayrağı Gününü qeyd ediblər.

**Mətbuat xidməti**